AZƏRBAYCAN RESPUBLİKASI
ENERGETİKA NAZİRLİYİ
Bakı şəh.
Tel.: (+994 12)
e-mail:
№ 10/17
«26» 09 2017

**"SİNAM" MMC-nin direktoru**
**cənab Əbülfət Rəhmanova**

"FARABİ" layihəsi çərçivəsində müəssisə resurslarının
idarə edilməsi üçün tətbiq olunan SERP proqram təminatına dair

RƏY MƏKTUBU

Maliyyə Nazirliyinin həyata keçirdiyi "Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları (FARABI)" layihəsi əsasında 2015-ci ildən Azərbaycan Respublikası Energetika Nazirliyində SERP (Müəssisə Resurslarının İdarə Olunması Sistemi) proqram təminatının tətbiqinə başlanılmışdır. SERP proqram təminatı müəssisə resurslarının idarə edilməsi üçün nəzərdə tutulduğundan Milli Mühasibat Uçotu Standartları əsasında proqramlaşdırılmışdır. Qəbul edilmiş müvafiq qanunvericilik aktları, Əmək Məcəlləsi, Vergi Məcəlləsi və müxtəlif icra təlimatları proqram təminatında funksionallaşdırılmışdır.

Maliyyə uçotu üzrə müvafiq təlimat və qanunlarda edilmiş əlavə və dəyişikliklər müəssisənin maliyyə və mühasibat əməliyyatları ləngimədən sistemdə operativ şəkildə öz əksini tapır. Bu işdə "SİNAM" MMC təqdirə layiqdir.

Sistemin əsas üstünlükləri kimi istənilən məlumatı qısa vaxt ərzində və dəqiqliklə əldə edə bilmək imkanını göstərə bilərik. Bununla yanaşı informasiyanın bazada toplanılması və silinmiş məlumatların belə asanlıqla bərpa edilməsini sistemin üstün cəhətlərindən hesab edirik.

**Hörmətlə,**
Maliyyə-mühasibat şöbəsinin müdiri: Fariz Bağırov

26.09.2017

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
Ümumi şöbə